# *Əmr MUSA:* "Ümid edirik ki, sülh region ölkələrinin gündəliyində birnömrəli məsələ olacaq"

"Biz bu regiondakı dəyişiklikləri yaxından izləyirik. Ümid edirik ki, sülh region ölkələrinin gündəliyində birnömrəli məsələ olacaq".




AZƏRTAC xəbər verir ki, bu fikirləri VIII Qlobal Bakı Forumunda iştirak edən Ərəb Dövlətləri Liqasının sabiq Baş katibi Əmr Musa jurnalistlərə açıqlamasında deyib.

O, Cənubi Qafqaz regionunda sülhün bərqərar olacağına inandıqlarını qeyd edib. Sabiq Baş katib Azərbaycan Prezidenti İlham Əliyevin sülhlə bağlı fikirlərini diqqətlə dinlədiklərini də bildirib.

Azərbaycan.- 2021.-5 noyabr.- S.9.